MƏDƏNİYYƏT DÜNYASI
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, XXXXIII buraxılış, Bakı, 2023
МИР КУЛЬТУРЫ
*Азербайджанский Государственный Университет Культуры и Искусств, XXXXIII выпуск, Баку, 2023* THE
WORLD OF CULTURE
*Azerbaijan State University of Culture and Arts, XXXXIII edition, Baku, 2023*

**UOT 7:001.8**

**DOI 10.52094/152412.43.2023.34**

**Ayan Novruz qızı Xəlilova**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**dissertant E-mail:**
**ayan.khalil7@gmail.com**

# ORTA ƏSRLƏR AZƏRBAYCAN XATİRƏ TİKİLİLƏRİNDƏ KAŞI SƏNƏTİNİN BƏDİİ XÜSUSİYYƏTLƏRİ (XII-XIII əsrlər)

**Xülasə:** Məqalədə qeyd edilir ki, Azərbaycanda kaşı sənətinin tətbiqi daha çox İslam dininin ölkədə geniş vüsət almasından sonrakı dövrə təsadüf edir. Belə ki, ölkəmizdə İslam dini ilə əlaqədar yeni yaranmış abidələrin (məscid, türbə, mədrəsə, hamam və s.), xüsusilə xatirə tikililərinin interyer və eksteryerlərinin bədii tərtibatında kaşı sənətindən daha çox istifadə edilməyə başlanıldı. Bu mənada Qırmızı Günbəz, Dairəvi Günbəz, Göy Günbəz, Duzal, Möminəxatun türbələrini və xüsusilə Pir Hüseyn xanəgahını qeyd etmək olar.

**Açar sözlər:** Orta əsrlər, Azərbaycan, kaşı sənəti, bədii tərtibat, xatirə tikililəri.

Azərbaycanda keramika sənəti nümunələri istifadə edilməsi və bədii-texniki xüsusiyyətlərinə görə iki qrupa bölünür: məişətdə istifadə edilən saxsı məmulatları və memarlıqda tətbiq edilən kaşılar.

Azərbaycanda kaşı sənətinin tətbiqi daha çox İslam dininin ölkədə geniş vüsət almasından sonrakı dövrə təsadüf edir. Belə ki, ölkəmizdə İslam dini ilə əlaqədar yeni yaranmış abidələrin (məscid, türbə, mədrəsə, hamam və s.), xüsusilə xatirə tikililərinin interyer və eksteryerlərinin bədii tərtibatında kaşı sənətindən daha çox istifadə edilməyə başlanıldı. Bu mənada Qırmızı Günbəz türbəsi (1148), Dairəvi Günbəz türbəsi (1167), Göy Günbəz türbəsi (1194), Duzal türbəsi (XII əsr), Möminə Xatun türbəsi (1186) və xüsusilə Pir Hüseyn xanəgahını (1243-1244) qeyd etmək olar.

*"Ərəb tarixçilərindən Müqəddəsi, Həməvi və başqaları Azərbaycan şəhərlərində bişmiş kərpicdən tikilmiş və kaşılarla bəzədilmiş binaların olmasını xəbər verirlər. XII əsrin axırı və XIII əsrin əvvəllərində yaşamış və şəxsən Təbrizdə olmuş Yaqut Həməvi yazır ki, Təbriz çox əhaliyə malik gözəl şəhər olub, kərpicdən tikilmiş evləri kaşılarla bəzədilmişdir. Azərbaycanda kobalt filizinin külli miqdarda olması və bu dövrdə*

*ondan firuzəyi şir üçün səmərəli istifadə edilməsi nəticəsində xüsusi kaşıların istehsalı genişlənirdi. Çünki memarlıq abidələrinin xarici və daxili tərtibatında bu kaşılardan geniş istifadə edilirdi. Təbrizdə, Ərdəbildə, Naxçıvanda, Bərdədə və Şirvanın bəzi yerlərində tikilmiş məscidlərin, türbələrin, hamam və binaların bədii tərtibatında işlənmiş müxtəlif rəngli (xüsusən abı, göy, firuzəyi) kaşıların nümunələri hələ indiyə qədər qalmışdır" (1, s.69).*

Məlumat üçün qeyd edək ki, Azərbaycanda kaşıdan ilk dəfə 1148-ci ildə inşa edilmiş Qırmızı Günbəz türbəsində istifadə edilmişdir. Marağada yerləşən bu nəfis memorial-xatirə abidəsinin bədii tərtibatında istifadə olunan kaşı nümunələri ilk olmaqla yanaşı eyni zamanda özünün yüksək bədii həllinə görə də seçilir.



**Qırmızı Günbəz türbəsinin kaşı tərtibatlı baştağı. Fraqment**

Türbənin zahiri künclərini bəzəyən kərpicdən işlənilmiş silindrik sütunlar bir növ bədii kompozisiya rolunu oynayır. Müxtəlif naxışlarla tərtib edilmiş bu sütunlar ümumi görünüşdə abidənin daha baxımlı olmasını şərtləndirir. Lakin türbənin şimal hissədə yerləşən baş fasadı daha zəngin tərtibata malikdir. Giriş qapısının üzərindəki həndəsi elementlərlə bəzədilmiş hissə kufi xətti ilə nəfis yazılmış kitabə zolağı ilə əhatələnmişdir. Burada türbəni sifariş edənin adı – vaxtilə Azərbaycan hakimi olan Əbüləziz Mahmud oğlunun adı qeyd olunmuşdur. Baş fasadda kərpicdən tərtib edilmiş hörmə naxışlarla yanaşı firuzəyi kaşılarla bəzədilmiş kərpiclər də özünəməxsus yer tutur. Lakin burada firuzəyi kaşıların bişmiş qırmızı kərpiclərə nisbətən azlığı türbənin ümumi – qırmızımtıl koloritinə bir o qədər də təsir göstərə bilməmişdir. Məhz buna

görədir ki, türbənin adını onun inşası zamanı istifadə edilmiş bişmiş qırmızı kərpicdən üzlük müəyyənləşdirmişdir.

Bədii tərtibatında kaşıdan istifadə edilmiş xatirə tikililərdən biri də 1194-cü ildə Marağada inşa edilmiş Göy Günbəz türbəsidir. Bəzi tədqiqatçıların fikrinə görə türbənin Göy Günbəz adlanması Hülakü xanın anası Suyur Göktən Xatunun adının qısaldılması ilə əlaqədardır. Digər tədqiqatçılar isə türbənin adının onun fasad bəzəyində olan göy rəngli kaşılarla əlaqələndirirlər. Qırmızı Günbəz türbəsindən fərqli olaraq Göy Günbəz türbəsinin bədii tərtibatında kaşıdan daha çox istifadə edilmiş, onun zahiri görkəmində, xüsusilə üst hissəsində göy kolorit daha üstünlük təşkil edir.



**Göy Günbəz türbəsinin kaşı tərtibatlı eksteryeri**

Marağa xatirə tikililərində olduğu kimi Naxçıvan xatirə tikililərinin bədii tərtibatında müxtəlif formalı qırmızı bişmiş kərpiclərlə yanaşı kaşılardan da geniş istifadə edilmişdir.

*"İnşaat materiallarının memarlıq məktəblərinin formalaşmasındakı roluna gəldikdə isə, əgər Şirvan-Abşeron memarlıq məktəbi üçün əsas inşa və üzlük materialı əhəng daşı idisə, Naxçıvan-Marağa, Təbriz məktəbləri üçün bişmiş kərpicdən hörülmüş və mavi rəngli kaşılarla üzlənmiş dini tikililərin inşası daha xarakterik idi" (4, s.45).*

Azərbaycan xatirə tikililərinin ən görkəmli nümunələrindən olan Möminəxatun türbəsi özünün bədii tərtibatı ilə nəinki Orta əsrlər Azərbaycan xatirə tikililərinin, o cümlədən Mərkəzi Asiya ölkələrinin xatirə tikililərinə təsir göstərən abidələrdəndir. Memar Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən 1175-1186-cı illərdə inşa edilmiş "*Möminəxatun türbəsində Memarın adını və abidənin inşaat tarixini göstərən kitabələr türbənin qərb səthində, portaldan yuxarıda göstərilmişdir. Möminəxatun türbəsinin yuxarı hissəsindəki qurşaq bütün səthləri əlaqələndirir və orada yerləşdirilmiş kufi xəttin firuzəyi kaşı yerlik üzərində olması bu kitabə qurşağını binanın əhəmiyyətli bir kompozisiya elementinə çevirir* (1, s.47).



**Möminə Xatun türbəsinin günbəzə keçid hissəsində kaşı tərtibatlı kitabə kəməri**

Azərbaycanda kaşı sənətinin ən bariz nümunələrindən biri məhz Pirsaat çay üzərində yerləşən Pir Hüseyn xanəgahına daxil olan türbədir. Türbənin divarları, məzar daşı və keçidin tağbəndi bir zamanlar çox gözəl keramik kaşılarla üzlənmişdi.

Pirhüseyn türbəsinin bədii tərtibatında 11 metr uzunluğunda kaşı ilə tərtib edilmiş friz xüsusi ilə seçilir. Türbənin 1,6 m hündürlüyündə üzlənmiş divarın yuxarı

hissəsindən keçən friz 600 iri, bərabəryanlı xaçlar və onların arasında yerləşən səkkizguşəli ulduzdan ibarətdir.



**Pir Hüseyn xanəgahının kaşı bəzəyi. Fraqment**

*"Pirhüseyn Rəvananın türbəsinin içərisində qəbir sənduqəsinin üzərini örtən kaşılar olduqca qiymətli sənət əsəridir. Təəssüf ki, bu kaşılar hələ XIX əsrdən başlayaraq dağılmağa başlamış, müxtəlif tədqiqatçı, yaxud təsadüfi adamlar tərəfindən qopardılaraq aparılmış və dünyanın müxtəlif muzeylərinə yayılmışdır. Pirhüseyn kaşılarının böyük bir qrupu Dövlət Ermitajında, kiçik hissəsi isə Bakıda, Nizami muzeyində saxlanmaqdadır. Pirhüseynin kaşılarının üzərində olan ornamental bəzəklər və kitabələr olduqca diqqəti cəlb edən tarixi əhəmiyyətli materiallar olduğu üçün görkəmli rus şərqşünası V.A.Kraçkovskaya tərəfindən ətraflı şəkildə tədqiq edilmiş və bir monoqrafik əsər şəklində nəşr edilmişdir. Pirhüseynin kaşılarının bir xüsusiyyəti də ondan ibarətdir ki, o zaman Azərbaycanda əsas etibarilə kəsmə kaşı tətbiq edildiyi halda bu binanın kaşı bəzəyi, əvvəlcə müəyyən naxışlar formasında çəkilib üzəri şirələndikdən sonra böyük təbəqələr şəklində bişirilmiş kaşı növündəndir. Belə kaşılar böyük parçalar şəklində olduğu üçün onların quraşdırılması kəsmə kaşıya nisbətən daha asanlıqla başa gəlirdi" (1, s.50).*

Qeyd edək ki, Pirhüseyn xanəgahının kaşıları bütün Yaxın və Mərkəzi Şərq ölkələrinin xatirə tikililəri arasında ən yaxşı nümunə hesab edilir. XIX əsrin ortalarında xanəgahı ziyarət edən İ.Bartolomey qeyd edirdi ki, "Xanəgahın kaşıları hədsiz dərəcədə gözəldir və hətta Qəzvin və Sultaniyyə məscidlərində belə kaşıları görməmişəm". Həqiqətən özünün yüksək səviyyəli bədii həllinə görə seçilən

Azərbaycan kaşı nümunələri, xüsusilə Pirhüseyn türbəsinin kaşıları hal-hazırda dünyanın bir çox ən nüfuzlu muzeylərində – Ermitaj, Britaniya, Luvr və Tiflis şəhər muzeyində nümayiş etdirilməkdədir.

## Ədəbiyyat siyahısı:

1. Əfəndi R. Azərbaycan incəsənəti. Bakı, "Şərq-Qərb", 2007.
2. Əmənzadə R. Azərbaycan memarlığı XV-XIX əsrin əvvəllərində. III cild. Bakı, 2013.
3. Qiyasi C. Nizami dövrü memarlıq abidələri. Bakı, 1991.
4. Məmmədova G., Məmmədova Z. Orta əsrlər memarlığı (VIII-XIV əsrlər). II cild. Bakı, 2013.
5. Nemətova M. Azərbaycan pirləri. 1992. 6. Salamzadə Ə.V. Əcəmi Əbubəkr oğlu Naxçıvani. Bakı, 1976.
7. Salamzadə Ə.V., Məmmədzadə K.M. Azərbaycanın memarlığının Naxçıvan məktəbi abidələri. Bakı, 1958.
8. Неймат М.С. Корпус эпиграфических памятников Азербайджана. Арабоперсо-тюркоязычные надписи Нахичеванской Автономной Республики (XII – начала XX века), т. III. Баку, 2001.

**Аян Новруз кызы Халилова**

## В мемориальных зданиях средневекового Азербайджана художественные особенности изразцового искусства (XII-XIII вв.)

**Резюме:** В статье отмечается, что применение изразцового искусства в Азербайджане в основном совпадает с периодом после распространения ислама в стране. Так, в нашей стране изразцовое искусство больше использовалось в художественном оформлении вновь создаваемых памятников, связанных с исламской религией (мечеть, усыпальница, медресе, баня и т. д.), особенно

интерьера и экстерьера мемориальных сооружений. В этом смысле можно упомянуть гробницы Красный купол, Круглый купол, Голубой купол, Дузал, Моминахатун и особенно Пир-Хусейн-Ханага.

**Ключевые слова:** Средневековье, Азербайджан, изразцовое искусство, художественное оформление, мемориальные сооружения

**Ayan Novruz gizi Khalilova**

**Artistic characteristics of tiling art in the medieval Azerbaijan memorial buildings (XII-XIII centuries)**

**Summary.** The article mentions that the application of tile art in Azerbaijan mostly coincides with the period after the spread of Islam in the country. Thus, in our country, tile art was used more in the artistic design of newly created monuments related to the Islamic religion (mosque, tomb, madrasah, bathhouse, etc.), especially the interior and exterior of memorial buildings. In this sense, we can mention the tombs of Red Dome, Round Dome, Blue Dome, Duzal, Mominakhat, and especially Pir Huseyn Khanaghah.

**Key words:** Middle Ages, Azerbaijan, tile art, artistic design, memorial buildings

**Məqalənin redaksiyaya daxil olma tarixi: 10. 10. 2023**